# Məsafədən TƏHSİL

**Təhsil Nazirliyinin 2021-ci il üzrə ali və orta ixtisas təhsili müəssisələrində məsafədən təhsilin təşkilinə dəstəyin göstərilməsi ilə bağlı həyata keçirilən fəaliyyətləri çərçivəsində cari ilin may-iyun aylarında ARTİ tərəfindən məsafədən təhsildə öyrənmə nəticələrinin araşdırılması məqsədilə orta ixtisas və ali təhsil müəssisələrinin tələbələrinin, professor-müəllim heyətinin, inzibati heyətin və məsafədən təhsilin təşkilindən birbaşa məsul olan şəxslərin iştirakı ilə sorğu və müsahibələr həyata keçirilmişdir.**

## Orta ixtisas və ali təhsil müəssisələrinin təcrübələrinin tədqiqi





**Könül ABASLI,**

*ARTİ-nin Təhsildə strateji tədqiqatlar şöbəsinin müdiri*

İlkin mərhələdə cari vəziyyəti təhlil etmək üçün orta ixtisas təhsili və ali təhsil müəssisələrinə sorğular göndərilmişdir. Sorğular tələbələr, tədris işlərinə məsul heyət və professor-müəllim heyətini əhatə etmişdir. Keçirilmiş sorğularda 41366 nəfər tələbə, 465 nəfər tədris işlərinə məsul heyət və 3059 nəfər professor-müəllim iştirak etmişdir.

Müvafiq araşdırmanın davamı olaraq ikinci mərhələdə isə pandemiya dövründə 21 ali və orta ixtisas müəssisəsinin məsafədən təhsilin təşkilindən və tədris prosesinin təşkili və keyfiyyət təminatı ilə bağlı fəaliyyətlərin icrasından məsul olan əməkdaşları ilə müsahibələrin təşkil olunması və vəziyyətin təhlili məqsəd olaraq qarşıya qoyulmuşdur.

Sorğu və müsahibələrin həyata keçirilmə məqsədləri bənzər olduğu üçün istifadə olunan suallar bir-birini dəstəkləyici xarakter daşımışdır. İstər sorğu, istərsə də müsahibə mərhələsindən əldə edilən məlumatlar təhlil olunduğu zaman eyni və ya yaxın məzmunlu suallar qarşılaşdırılmış və respondentlərin cavabları, rəy və təklifləri müqayisəli təhlil edilmişdir. Müsahibə və sorğunun respondentlərinin fərqli qrupları təmsil edən şəxslər olması müqayisəli təhlilin vacibliyini artırmışdır.

Sorğu və müsahibələrdən əldə edilən nəticələrin müqayisəsi zamanı aydın olmuşdur ki, orta ixtisas təhsili və ali təhsil müəssisələrində məsafədən tədrisin təşkili ilə bağlı bir sıra çətinliklər yaşanmışdır. Belə ki, həm sorğuların, həm də müsahibələrin nəticələri göstərmişdir ki, internet bağlantısının kəsilməsi, İKT-dən istifadə vərdişlərinin zəif olması, texniki problemlər, tələbələrin özünütəhsil motivasiyasının aşağı olması məsafədən təhsil zamanı qarşılaşılan əsas çətinliklərdir.

Məsafədən təhsilin təşkili zamanı yaşanan çətinliklərə baxmayaraq onun tətbiqinin özünəməxsus üstünlüklərinin də mövcudluğu sorğu və müsahibələrin təhlili nəticəsində ortaya çıxmışdır. Təhlillər məsafədən təhsilin tədris prosesinin bütün iştirakçılarına, eyni zamanda, təhsil sisteminin özünə bir çox töhfələr verdiyi ilə əlaqəli araşdırma iştirakçılar arasında ortaq düşüncələrin olduğunu göstərmişdir. Belə ki, istər sorğuda, istərsə də müsahibələrdə iştirak edən respondentlər məsafədən təhsilin inkişafı izləyən və xüsusi hesabatlar yaratmağın mümkünlüyü, təlimdən yararlanmağa kömək edəcək funksiyalara malik olması, innovativ tədris-öyrənmə vasitə və materiallarının olması, rahat və müstəqil təhsil şəraiti kimi üstünlüklərinin olduğunu və məsafədən təhsilin müəllimlərin İKT bacarıqlarının artması, elektron resursların yaradılması, effektivliyin təmin olunması, vaxt itkisinin qarşısının alınması kimi töhfələr verdiyini qeyd etmişlər. Bu mənada təhsil prosesinin iştirakçılarının məsafədən təhsilin tətbiqinin sadəcə çətinliklərə səbəb olmadığının, eyni zamanda məsafədən təhsil mexanizminin düzgün qurulmasının təhsil sisteminə əhəmiyyətli fayda və töhfələr verdiyinin fərqində olduqları qeyd oluna bilər.

İstər sorğuların, istərsə də müsahibələrin təhlili bunu deməyə imkan verir ki, məsafədən təhsil dövründə keyfiyyətin artırılması məqsədilə müəssisələrdə təlimlərin təşkili, video təlimatların hazırlanması, əlavə dərs saatlarının təyin edilməsi, metodik vəsaitin hazırlanması və fərdi köməkliyin göstərilməsi kimi dəstək tədbirləri həyata keçirilmişdir.

Araşdırma çərçivəsində təşkil olunan sorğularda iştirak edən inzibati və tədrisin təşkilindən məsul şəxslər tələbələrin ümumi nailiyyət səviyyəsinin yaxşılaşdığını qeyd etmişdir. Müsahibədə iştirak edən respondentlər də ümumi nəticələrdə bu tendensiyanın müşahidə olunduğunu bildirsələr də, nəticələrin tam reallığı əks etdirmədiyini, tələbə nailiyyətinin yüksəlməsində kənar vasitələrdən istifadə kimi faktorların təsirlərinin də olduğunu vurğulamışlar. Tələbə nailiyyətləri ilə əlaqəli professor-müəllim heyətinin fikirlərində isə digər qruplarla müqayisədə fərqliliklərin olduğu müşahidə olunmuşdur. Belə ki, sorğularda iştirak edən professor-müəllim heyətinin demək olar ki, yarısı tələbə nailiyyətlərində hər hansı bir dəyişikliyin olmadığını qeyd etmişdir. Professor-müəllim heyətinin müvafiq mövzu ilə bağlı fərqli düşüncələrinin olmasının onların tələbələrlə birbaşa işləməsi və real vəziyyəti rəqəmlər üzərindən deyil, situasiyalar üzərindən qiymətləndirilməsi ilə əlaqəli olduğu təxmin edilir. Əlavə olaraq, həm sorğu, həm də müsahibə nəticələri təhlil edildikdə təhsilalanların təhsil müəssisələrinin məsafədən təhsilin təşkili fəaliyyətlərini ümumilikdə yaxşı olaraq dəyərləndirdiyi müşahidə olunur.

Müvafiq araşdırmanın həyata keçirilməsində iki fərqli ölçmə aləti (sorğu və müsahibə) tətbiq olunmuşdur. Ölçmə alətləri fərqli olsa da, təhlillər göstərir ki, məsafədən təhsilin təşkili ilə bağlı bir sıra mövzularda əldə edilən nəticələr bir-birini dəstəkləyir.

Həm müsahibələr, həm də sorğular nəticəsində əldə olunan məlumatlar emal edildikdən sonra ortaya çıxan nəticələrə uyğun olaraq müvafiq təkliflər və tövsiyələr hazırlanmışdır.

Sorğuların nəticələri əsasında hazırlanan təkliflərdən bəziləri aşağıda təqdim olunmuşdur:

* Professor-müəllim heyətinin və tələbələrin rəqəmsal resurslara əlçatanlığının təmin olunması məqsədilə universitetlərin kitabxanalarının rəqəmsallaşdırılması;
* Onlayn dərslərin həyata keçirilməsinə aid müvafiq təlimatların, elmi-metodik vəsaitlərin hazırlanıb professor-müəllim heyətinin və tələbələrin istifadəsinə verilməsi;
* Rəqəmsallaşma davamlı inkişaf edən bir proses olduğu üçün ali təhsil müəssisələrinin tədris prosesinin rəqəmsallaşdırılması ilə əlaqədar hədəflərinin müəyyənləşdirilməsi, bu hədəflərə çatmaq üçün ali təhsil müəssisələrində distant təhsil mərkəzinin yaradılması, həmin mərkəzdə davamlı olaraq professor-müəllim heyətinin və tələbələrin şəbəkə, rəqəmsal məzmun, tədris və qiymətləndirmə barədə bacarıqlarının artırılması istiqamətində sistemli işin (rəqəmsal təlimlər, konfranslar, seminarlar və s.) aparılması, metodist hazırlığının həyata keçirilməsi.

Müsahibələrin nəticələri əsasında hazırlanan təkliflərdən bəziləri aşağıda təqdim olunmuşdur:

* Təhsil prosesindəki maraqlı tərəflərin düşüncə tərzinin “Məsafədən təhsil artıq fövqəltəbii durumlarda tətbiq olunan bir üsul deyil, bu, bir ehtiyac, bir təhsil forması və ən əsası günümüzün reallığıdır” yönündə dəyişdirilməsi və bu istiqamətdə maarifləndirici tədbirlərin həyata keçirilməsi;
* Ucqar regionlarda yaşayan və həssas qruplara aid olan tələbələrin nəzarətdə saxlanılması və onların internetə çıxışlarına mane olan faktorların aradan qaldırılması;
* Məsafədən tədrisə adaptasiyanın daha rahat həyata keçirilməsi üçün təhsil müəssisələrinin professor-müəllim heyətinin texniki və rəqəmsal bacarıqlarının artırılması istiqamətində təlimlər keçməklə və ya digər alətlərlə dəstək təmin etməklə yanaşı təhsil proqramlarının, sillabusların məsafədən təhsilə uyğunlaşdırılması və məzmunun, mühazirə və seminar dərslərinin təşkili qaydalarının dəyişdirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi.

Araşdırmanın (həm sorğu, həm də müsahibələrin) nəticələri əsas alınaraq hazırlanmış təklif və tövsiyələrdə müəyyən fərqlər olsa da, bu təklif və tövsiyələrdə ölkədə məsafədən təhsilin səmərəli və keyfiyyətli təşkili üçün normativ hüquqi bazanın yaradılması məsələsində həmfikirlik olduğu müşahidə olunur. Belə ki, təhsil müəssisələrini təmsil edən nümayəndələrlə həyata keçirilmiş müsahibələrdə məsafədən tədris zamanı bir sıra məsələlərdə (seminar dərslərinin, imtahanların keçirilmə forması və s.) necə bir yol izlənməsi ilə bağlı vahid qaydaların olmadığı və belə durumlarda təhsil müəssisələrinin hər birinin fərqli mexanizmlər tətbiq etdikləri aydın olmuşdur. Təhsil müəssisələrinin qərarvermə prosesini asanlaşdırmaq və ziddiyyətli durumların ortaya çıxmasının qarşısını almaq üçün məsafədən (distant) təhsilin hüquqi bazasının hazırlanması və hər bir mövzuda konkret qaydaların müəyyənləşdirilməsi məqsədəuyğun hesab olunur.

Yekdilliklə qeyd olunan digər bir təklif isə elektron resurs bazaların yaradılması ilə bağlıdır. Belə ki, texniki səbəbdən məsafədən təşkil olunan dərslərə qoşula bilməyən tələbələrin tədris prosesindən geri qalmaması üçün birbaşa (canlı) dərslərin arxivləşdirilmiş video komplektinin yaradılması, müvafiq ixtisasların tədris proqramları üzrə dərslərin materiallarının (elektron mühazirələr, dərs vəsaitləri və s.) artıq paket halında istənilən zaman tələbələrin istifadəsinə verilməsinə, təhsil müəssisələrinin müxtəlif fövqəltəbii vəziyyətlərə hazır və distant təhsil bazarına daxil olmalarına şərait yaradacaqdır. Bu mənada digər təhsil müəssisələrinin də məsafədən təhsil zamanı istifadə edilmiş elektron materiallarının, dərslərin qeydə alınmış video yazılarının və s. hesabına elektron resurs bazası yaratmaları və prosesin qərarverici orqanlar tərəfindən təbliğ və təşviq edilməsi məqsədəuyğun hesab olunur.